# İslamofobiyaya qarşı effektiv mübarizə aparılır

"İslamofobiya müxtəlif formalarda, o cümlədən gündəlik həyatda müsəlmanlara qarşı irqçilik və ayrı-seçkilik, nifrət nitqi, fiziki hücumlar, media və sosial media platformalarında stiqmatizasiya, institusional diskriminasiya və digər formalarda təzahür edir. Bu cür ədalətsiz və qərəzli münasibət müsəlmanların cəmiyyətə inteqrasiya olunmalarına və özlərini onun bərabərhüquqlu üzvü kimi hiss etmələrinə böyük maneə yaradır".



Azərbaycan Prezidentinin Bakıda keçirilən "İslamofobiya: qərəzin ifşa olunması və stiqmaların dağıdılması" mövzusunda beynəlxalq konfransın iştirakçılarına müraciətində yer alan bu ifadələr bu gün islamofob qüvvələrin müsəlmanlara qarşı müxtəlif platformalarda aparılan açıq-aşkar ayrı-seçkiliklərindən xəbər verir. Bəzən belə kampaniyaların təşkili isə nəinki bir təşkilat, qurum, hətta dövlətlər, hökumətlər səviyyəsində özünü göstərir.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədr müavini Sahib Alıyev qəzetimizə açıqlamasında bildirib ki, Prezident İlham Əliyevin konfrans iştirakçılarına müraciətində də konkret faktlarla əksini tapdığı kimi, dünyada islamofobiyanın tüğyan etdiyi bir dövrdə Bakıda "İslamofobiya: qərəzin ifşa olunması və stiqmaların dağıdılması" adlı beynəlxalq konfransın keçirilməsi son dərəcə önəmlidir: "Bu konfransla Azərbaycan islamofobiyaya qarşı mübarizə məsələsində müsəlman dövlətləri sırasında nəinki ən qətiyyətli və prinsipial mövqe tutması ilə fərqlənir, eyni zamanda bununla ən effektiv mübarizə apardığını ortaya qoyur. Bir çox ölkənin liderləri susmağa üstünlük verdikləri halda Azərbaycan müsəlmanlara qarşı ayrı-seçkiliyin yolverilməzliyini ən yüksək səviyyədə sərt şəkildə tənqid edir və bunun arxasında kimlərin dayandığını da ad çəkməklə bildirir. Belə tədbirlərin təşkili ilə yanaşı, Azərbaycanda multikulturalizm həm dövlət siyasəti, həm də həyat tərzi olması, bütün dinlərə eyni dərəcədə ehtiram göstərilməsi isə, fikrimcə, islamofobiyaya qarşı ən təsirli mübarizədir".

Deputat qeyd edib ki, xüsusilə Heydər Əliyev Fondunun bu sahədəki fəaliyyəti, Vatikanda Müqəddəs Sebastian katakombalarının, ölkə daxilində xristan məbədlərinin, sinaqoqların bərpasında və inşasında oynadığı rol bütün müsəlmanları xristian düşməni kimi təqdim etməyə çalışanların nə qədər qərəzli davrandıqlarını ortaya qoyur. Müsəlman dövlətləri islama qarşı təzyiqləri neytrallaşdırmaq istəyirlərsə, dövlətimizin bu addımlarından örnək götürməli, həmçinin Azərbaycanda olduğu kimi məzhəb, təriqət ayrı-seçkiliyinə yol verməməlidirlər. Çünki bu ayrı-seçkilik islama - dinimizə düşməncəsinə yanaşanlardan daha böyük zərbə vurur.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 30 may (№111).- S.18.